# SSRİ-nin xiffətini təbliğ edənlər var...

**Milli İstiqlal Partiyasının fəxri sədri Etibar Məmmədovla hafta.az üçün budəfəki söhbətimizdə son vaxtlar cəmiyyətdə, bəzi vətəndaşlarda sovet dövrü nostaljisini yaradan amillər, konkret olaraq İmişlidə 9 may qələbə günü ilə bağlı tədbirdə SSRİ bayrağının qaldırılması, Rusiya lideri Putinin hansı resurslara arxalanıb keçmiş SSRİ sərhədlərində imperiyanı bərpa etməyi planlaşdırması, ABŞ Prezidenti D.Trampın Ukraynada sülhün əldə olunması istiqamətində nəyəsə nail ola bilib-bilməyəcəyi, həmçinin ötən həftə ölkəmizdə və qardaş Türkiyədə əsas müzakirə edilən məsələlərdən biri olan prezident R.T.Ərdoğanın Çaldıran döyüşü, Şah İsmayıl Xətainin Osmanlıya münasibəti barədəki məlum çıxışı və s. mövzulardan bəhs etdik.**



**Etibar Məmmədov,**
Milli İstiqlal Partiyasının fəxri sədri

## Müsahib

***- Son müstəqillik illərində haçansa şəxsi həyatınızda özünüz və ya övladlarınızla bağlı müəyyən çətinliklər, problemlərlə üzləşəndə sizdə bir SSRİ, "sovet hökuməti" xiffəti, nostaljisi oyanmayıb?***

- Xeyr, belə bir şey olmayıb və ola da bilməz...

***- Bəs, son vaxtlar cəmiyyətdə, bəzi vətəndaşlarda bu sovet dövrü nostaljisini yaradan hansı amillərdir?***

- Hesab edirəm, belə hallar təsadüfi deyil. İnsanların vaxtilə ölkələrini müstəmləkə kimi saxlayan imperiya ilə bağlı nostalji hissləri köləlik xislətindən irəli gəlir. Yəni o cür rejimlər insanları kölə halına salırlar. Müstəqillik dövründə müəyyən çətinliklərlə üzləşəndə belə insanlar xatırlayırlar ki, o vaxt bizə filan qədər maaş verirdilər, təhsil, səhiyyə pulsuz idi, işsiz adam yox idi və s. Halbuki sovet dövründə vətəndaşlara insan üçün vacib olan bir çox hüquqlar verilmirdi. Deyirdilər ki, "Siz, ümumiyyətlə, ölkədəki problemlər, qayğılarınız haqda düşünməyin, sizin əvəzinizə partiya və hökumətimiz düşünür, sizin əvəzinizə planlaşdırırlar, bir sözlə rəhbərlik sizin əvəzinizə hər şeyi edir, sizin vəzifəniz, sadəcə, başınızı aşağı salıb işləmək və yuxarıdan gələn əmr və göstərişləri icra etməkdir". Bu çərçivələr daxilində hamı işlə və əksəriyyət cüzi maaşla təmin olunurdu. İnsanların bu halı qəfəsdə quşlarla müqayisə oluna bilər. Təəssüf ki, insanların çoxu da belə yaşayışla razılaşır. Onlara azadlıqdan öncə nisbi maddi rahatlıq lazımdır...

> “ *Bir neçə nəsil keçməlidir ki, o sovet xiffəti, nostaljisi əksəriyyətin yadından çıxsın*

Əslində, ölkələr, xalqlar müstəqillik əldə etdikdən sonra bütövlükdə kütlələrdə imperiya xiffətinin tam unudulması və azadlıq duyğusunun bərqərar olması üçün bir neçə nəsil keçməlidir. Azərbaycan da SSRİ-dən qurtulub müstəqillik əldə olunandan bəri hələlik bir nəsil dəyişib. Bir neçə nəsil keçməlidir ki, o sovet xiffəti, nostaljisi əksəriyyətin yadından çıxsın. Bu, yalnız yaddaş məsələsi deyil. Bu gün də məqsədli, planlı şəkildə imperiya xiffətini təbliğ edənlər var. Bunu təbliğ edənlər də hardansa, xaricdən və daxildən qaynaqlanırlar, istiqamətləndirilirlər. Yəni "5-ci kalon" deyilən məsələ təsadüfi deyil və o yalnız Rusiya ilə bağlanılmalıdır... Biri SSRİ nostaljisi yaradır, digər ölkə isə başqa şəkildə, insanların dini hissləri ilə oynamaqla öz planlarını həyata keçirməyə çalışır... Xülasə, xalqın beyinlərində milli müstəqillik düşüncəsinin tam formalaşması üçün müəyyən zaman gərəkdir. Digər tərəfdən, insanlarda belə bir xislət də var ki, incidiləndə, çarəsiz duruma salınanda kiminsə gəlib onun əvəzindən məsələni həll etməsini gözləyirlər. Ona görə də çıxış yolunu elə keçmiş hisslərinin bərpa olunmasında axtarırlar...

***- Yəni hesab edirsiniz ki, konkret olaraq mayın 9-da İmişli rayonunda SSRİ bayrağı və "georgi" lenti ilə müşayiət olunan təxribat da xaricdən qaynaqlanır?***

- Bəli, bu olayda yüz faiz xarici təsir var və konkret olaraq Rusiyadan qaynaqlanır. Dediyimiz kimi, xalq kütlələrində keçmiş SSRİ nostaljisi yaratmaq məqsədi güdülür...

***- Görəsən, hazırda dünyada SSRİ-nin xiffətini hamıdan çox çəkən Rusiya prezidenti Vladimir Putin hansı resurslara arxalanıb keçmiş SSRİ sərhədlərində imperiyanı bərpa etməyi planlaşdırır?***

- Putin, ümumiyyətlə, Rusiya rəhbərliyi, Kreml keçmiş sovet ölkələrindəki "5-ci kalon"lardan istifadəyə də meyillənib. Yalnız bu deyil. Bütövlükdə tarixən Rusiya əhalisi imperiya ruhunda tərbiyə olunub və Putin də həmin ənənəni davam etdirir. Torpaqların genişləndirilməsi və bunun hesabına guya xalqın rifah halının yaxşılaşdırılması və s. kimi nağıllarla əhalini sakitləşdirmək istəyir. Ölkə daxilində vəziyyət çox pisdir. Hazırda Rusiyanın işğal etdiyi torpaqların ərazisindən 5 dəfə çox böyük ərazisi var ki, orada, demək olar ki, əhali yaşamır. Öz yeraltı, yerüstü resurslarına və məhsuldarlığına görə həmin torpaqlar işğal edilmiş torpaqlardan heç də geri qalmırlar. Yəni öz əlində olan torpaqlardan istifadə edə bilməyən bir millət başqa qonşu millətin, dövlətin torpaqlarına göz dikir. Bu, rusların ümumi formalaşmış bir milli xüsusiyyətidir. "Ruslar" deyəndə yalnız etnik rus millətindən olanları nəzərdə tutmuram. Bu, Rusiya ərazisində yaşayan bütün sakinlərin beyninə yeridilmiş bir xüsusiyyətdir. Yəni qonşunun yaxşı yaşaması onlarda sual yaradır ki, nəyə görə qonşu bizdən yaxşı yaşayır. Əksinə, fikirləşməkdən ki mən daha çox, daha yaxşı işləməliyəm ki, vəziyyətimi, şəraitimi yaxşılaşdırım, deyirlər ki, gedək qonşunu əzək, onu da özümüzdən pis vəziyyətə salaq. Elə Ukraynanın işğalı da məhz bu xislətə əsaslanır.

Təsəvvür edirsiniz, SSRİ-də kənd əhalisinə yalnız 1960-cı illərdə pasport verməyə başladılar. Şəhərlərə gələndə isə onlar yalnız xüsusi qaydada pasport ala bilirdilər. Yəni insanların, vətəndaşların sərbəst yerdəyişmə hüququ da yox idi. Xüsusi qeydiyyat rejimi var idi. Bir sözlə, Rusiya sakinlərində belə kölelik xüsusiyyətləri hələ də qalır. Putin də imperiyanı keçmiş SSRİ ərazisi çərçivəsində genişləndirmək planında həm də bu xüsusiyyətə güvənir...

***- Putindən söz düşmüşkən, mayın 19-da onunla Tramp arasında Ukraynada uzunmüddətli atəşkəsə nail olunması ilə bağlı növbəti telefon danışığı oldu. Ondan əvvəl isə Rusiya və Ukrayna nümayəndələrinin İstanbulda görüşü olmuşdu. Sizcə, bu templə, bu gedişlə, ABŞ Prezidenti Ukraynada sülhün əldə olunması istiqamətində nəyəsə nail olacaqmı?***

- Əslində, Trampın prezidentliyə başlayandan apardığı siyasət bütövlükdə dünya üçün təhlükəli bir siyasətdir. İkinci Dünya savaşından sonra dünyada bir düzən yaranıb, Birləşmiş Millətlər Təşkilatı yaranıb, onun qaydaları, nizamları müəyyənləşib. Qaydaların ən əsaslarından biri də odur ki, hərbi güc hesabına, başqa sözlə, hərbi təcavüz əsasında başqalarının ərazisini özününküləşdirmək olmaz. "Əgər Ukrayna da Rusiyanın işğal etdiyi ərazilərin həmin işğalçı ölkənin ərazisi kimi rəsmiləşdirməsinə məcbur edilərsə, bu çox mənfi bir presedent yaradacaq. Yəni o halda hansı dövlət güclüdürsə, digərinin ərazisini işğal edib özününküləşdirə bilər. Nəticədə, əvvəlki beynəlxalq razılaşmalar, o cümlədən də Helsinki razılaşması qüvvədən düşmüş olacaq. Bu da təcavüzkar dövlətlərə imkan verəcək ki, hərbi güc hesabına öz ərazilərinə genişləndirməyə cəhd etsinlər. Bu isə bütün dünyada sabitliyin pozulması deməkdir. Yəni mövcud qaydaların pozulması və yeni qaydaların da formalaşmadığı bir şərait yaranacaq. Tramp isə özünün bugünkü vəziyyətindən çıxış edərək öz adını tarixə salmaq istəyir. Bu cür tarixə düşmək də faydalı bir şey deyil. Ona görə də onun Putinlə bu cür yumşaq rəftarı və əksinə, Ukraynanı təslimçiliyə məcbur etməsi Rusiyanın daha çox şirniklənməsinə, daha çox tələblər irəli sürməsinə gətirib çıxarır. Bu da Ukraynanın bir dövlət kimi yer üzündən silinməsinə səbəb ola bilər. Putinin tələbləri də ondan ibarətdir ki, Ukraynanın hərbi qüvvələri, siyasi idarəçilik imkanları tamamilə məhdudlaşdırılsın. Bir növ, II Dünya müharibəsindən sonra Almaniyanın düşdüyü bir durumdan söhbət gedir...

Trampın bu siyasəti davam etdirəcəyi təqdirdə Ukrayna ilə bağlı danışıqlarda müsbət və ədalətli bir nəticə əldə edilməsi perspektivini görmürəm...

***- Ötən həftənin diqqətçəkən və müxtəlif media resurslarında mübahisələr, qalmaqallar yaradan mövzularından biri də Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın 1514-cü ildə Osmanlı və Səfəvi dövlətləri arasında baş vermiş Çaldıran döyüşü, Şah İsmayıl Xətainin Osmanlıya münasibəti haqqında çıxışı və buna Azərbaycanda və Türkiyənin özündən səslənən reaksiyalar oldu. Məsələyə ixtisasca tarixçi olan bir siyasətçi kimi sizin də münasibətinizi öyrənmək maraqlı olardı?***

- Təsadüfi deyil ki, Osmanlıların Səfəvilərə qarşı apardığı müharibə yalnız türkün türkə qarşı savaşı yox, müsəlmanın müsəlmana qarşı savaşıydı. Bunu da əsaslandırmaq üçün hətta Osmanlı şeyxülislamlarından fətvalar alıblar. Yəni Səfəvi dövlətinin əhalisini qeyri-müsəlman, onların canlarını, mallarını da halal elan ediblər. Üstəlik, Səfəviləri tarixləri boyu müsəlmanlarla vuruşmaqda ittiham ediblər. Halbuki Osmanlıların özü məmlüklərə qarşı müharibə aparıb - onlar da müsəlman idi, Anadolu ərazisindəki Karamanoğullarına qarşı savaşıb - onlar da müsəlman idi. Yəni müsəlman dünyasında həmişə müharibələr olub. Həmişə də müsəlman dövlətləri bir-birləri ilə ərazi və resurslar üçün savaşıblar. Səlcuqlar, Ağqoyunlu, Qaraqoyunlu, Qaramanlı, Osmanlı kimi imperiyalar yaranıb. Belə savaşları dini baxımdan əsaslandırmaq cəhdi yalnız Osmanlı tərəfindən edilib.

*✍ Sultan Laçın*